# HEQT

HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# BİRİNCİ YARIMİLLİK HESABAT

# 2024

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (HEQT Mərkəzi) publik hüquqi şəxs Azərbaycan Respublikası (AR) Prezidentinin 19 may 2022-ci il tarixli 1685 nömrəli Fərmanı ilə yaradılıb.**

## MƏRKƏZİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

- 2024-cü ildən etibarən Mərkəzin işçilərinin say həddi **5 vahid** artırılıb və 2024-cü ilin birinci yarımilində həmin vəzifələrə müvafiq təyinatlar aparılıb.
- Mərkəzdə hüquqşünas ixtisası üzrə yaranmış vakansiyalarla bağlı təyinatlar həyata keçirilib.
- Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 mart tarixli 15 nömrəli Fərmanına əsasən Mərkəzin Nizamnaməsinin təkmilləşdirilməsi üzrə bəzi dəyişikliklər edilib.
- "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin işçilərinin həvəsləndirilməsi qaydası" təsdiq edilib.



## APARILMIŞ HÜQUQİ EKSPERTİZALAR

- "Minatəmizləmə fəaliyyəti haqqında" Qanun layihəsi;
- "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Qanun layihəsi;
- "Biznes palataları haqqında" Qanun layihəsi;
- "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman layihəsi;
- Ümumilikdə, hesabat dövrü ərzində **19 qanun** layihəsinin, **11 fərman** layihəsinin, **7 Nazirlər Kabinetinin qərar** layihəsinin hüquqi ekspertizası keçirilib.




## HAZIRLANMIŞ HÜQUQİ AKTLAR

- "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə" Qanun layihəsi;
- "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli 258 nömrəli və Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Fərman layihəsi;
- Ümumilikdə, hesabat dövrü ərzində **1 qanun** layihəsi, **7 fərman** layihəsi, **4 Azərbaycan Respublikası Prezidentinin sərəncam** layihəsi və **2 Nazirlər Kabinetinin qərar** layihəsi hazırlanıb.

## HÜQUQİ ARAYIŞLAR VƏ RƏYLƏR

- Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş müraciət üzrə **1 hüquqi rəy**;
- Konstitusiya Məhkəməsinin müraciəti üzrə **4 hüquqi rəy**;
- Energetika Nazirliyinin müraciətinə əsasən **1 hüquqi rəy**;
- Müxtəlif qanun layihələri və hüquqi məsələlərlə bağlı **3 hüquqi arayış**.

**Az1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz Plaza, 7-ci mərtəbə**

**office@heqt.gov.az**

**www.heqt.gov.az**

## QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ QAYDASINDA GÖRÜLMÜŞ İŞLƏR

- "Beynəlxalq müqavilələr haqqında" qanun layihəsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Xarici İşlər və Ədliyyə nazirliklərinin nümayəndələrinin iştirakı ilə intensiv görüşlər keçirilərək növbəti müzakirələr aparılıb.
- Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı hazırlanmış layihə təklifləri müzakirəyə təqdim olunub.



## NORMATİV HÜQUQİ AKTLARIN KEYFİYYƏTİNİN ARTIRILMASI MƏQSƏDİLƏ HAZIRLANAN MATERİALLAR

- Təlimlərin keçirilməsi məqsədilə təlim materialları və təqdimatlar hazırlanıb.
- "Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları" təsdiq edilib.
- "Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat" təsdiq edilib.



## ELMİ-PRAKTİKİ KOMMENTARİYALARIN HAZIRLANMASI ÜZRƏ İŞLƏR

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun kommentariyasının ilkin layihəsi üzərində Almaniya, Fransa, Rusiya Federasiyası, Gürcüstan və digər ölkələrin müvafiq qanunvericiliyi və hüquq doktrinası araşdırılmaqla, yerli və xarici akademik ədəbiyyatdan, məqalələrdən və məhkəmə təcrübəsi materiallarından istifadə edilməklə işlər tamamlanıb.

## MƏRKƏZİN TƏMSİL OLUNDUĞU MÜXTƏLİF TƏDBİRLƏR

- "Mülki qanunvericilik üzrə islahatlar: Almaniya təcrübəsi" mövzusunda keçirilən **seminar**;
- "Ətraf mühitinin gücləndirilməsində maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu" mövzusunda **elmi-praktiki konfrans**;
- "Azərbaycan bazarında sindikat kreditləşməsi" mövzusuna dair **konfrans**;
- Mərkəzin **3 əməkdaşı** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında **təlimlərə** cəlb edilib.
- Ümumilikdə, hesabat dövründə Mərkəzin əməkdaşlarının **25 tədbirdə** iştirakı təmin edilib.



## HÜQUQİ TƏRCÜMƏLƏRİN TƏŞKİLİ ÜZRƏ İŞLƏR

- "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- Ümumilikdə, hesabat dövründə cəmi **192** vərəq olmaqla **14** sənədin tərcüməsi yekunlaşıb.

## MƏRKƏZƏ DAXİL OLMUŞ MÜRACİƏTLƏR ÜZRƏ

Dövlət qurumlarından və vətəndaşlardan Mərkəzə **146 sənəd** daxil olub, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılıb.


Mərkəzin saytı
www.heqt.gov.az

e-mail ünvanı
office@heqt.gov.az

facebook
fb.com/heqt.merkezi